**Dövlət Statistika Komitəsinin nümayəndəsi “Kiçik sahibkarlığın Azərbaycanda inkişafı üzrə yol xəritəsi” mövzusunda keçirilmiş konfransda iştirak etmişdir**

2013-cü ilin 21 noyabr tarixində Bakı Biznes Mərkəzində USAID-in dəstəklədiyi “Azərbaycanda Qlobal Sahibkarlıq Həftəsi” layihəsi çərçivəsində Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun (SBİİYF) təşkilatçılığı ilə “Kiçik sahibkarlığın Azərbaycanda inkişafı üzrə yol xəritəsi” mövzusunda konfrans keçirilmişdir. Konfransda Aparatın Sənaye və tikinti statistikası şöbəsi müdirinin müavini Elnur Əlili iştirak etmişdir.

Konfransda tədbir iştirakçıları tərəfindən təqdim edilən məruzələrdə ölkə iqtisadiyyatının mövcud durumu, sahibkarların fəaliyyətinin iqtisadi inkişafa təsiri, sahibkarlıq fəaliyyətində qarşıya çıxan problemlər, “Sahibkarlıq haqqında”, “Xarici investisiyanın qorunması haqqında” qanunların mahiyyəti, məqsədləri, prinsipləri və üstünlükləri, əmək qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulmuş cərimələr və sanksiyalar, sahibkarlığın inkişafı üçün zəruri rəqabət mühitinin olması, rəqabətin əhəmiyyəti, şərtləri, rəqabət qabiliyyəti və ona təsir edən əsas faktorlar kimi məsələlərə toxunulmuşdur.

Məruzələrdən sonra tədbir diskussiya şəklində davam etmişdir.